**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN POEZİYASINDA GƏNCƏ MÖVZUSU MİLLİ ÖZÜNÜİFADƏNİN RƏMZİ KİMİ

İxtisas 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Təranə Fizuli qızı Verdiyeva**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Rəsmi opponentlər: | AMEA-nın müxbir üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Nüşabə Həmid qızı Araslı** |
| | filologiya elmləri doktoru, dosent<br>**Nailə Əbdül qızı Səmədova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Sevil Nəriman qızı Məmmədəliyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>____________ | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi:<br>____________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri:<br>____________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Müasir humanitar elmi düşüncədə milli dövlətçilik mənafeyi başlıca yer tutur. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ədəbiyyatın, sənətin və mədəniyyətin də əsas strateji məqsədi xalqın milli-mənəvi irsini qoruyub saxlamaq, tarixi dərk prosesini araşdırmaq və aşkara çıxarmaqdan ibarət olmuşdur. Tarixin müxtəlif dövrlərində və ideoloji sistemində dəfələrlə adı dəyişdirilən, milli çöhrəsi dəyişdirilməyə cəhd edilən madi-mənəvi dəyərlərimizin ən əhəmiyyətlilərindən olan Gəncə şəhəri fərqli tarixi dövrlərdə çeşidli siyasi təzyiq və təqiblərin hədəfinə çevrilmişdir. Xüsusilə, XIX əsrin əvvəllərində Gəncə xanlığının çar imperiyası tərəfindən işğala məruz qalması ilə adı bir neçə dəfə dəyişdirilmişdir. XX əsrin əvvəllərində ictimai-siyasi hadisələrin mərkəzlərindən biri olması, “Difai” təşkilatının burada qurulması, Qafqaz İslam Ordusunun ilk olaraq buraya gəlməsi və bir çox proseslər Gəncənin hər cəhətdən mərkəzliyini daha da artırmışdı. 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin paytaxtının bir neçə ay Gəncədə qərar tutması və bir silsilə önəmli dövlət qərarlarının buradan verilməsi, şəhərin dövlətçilik ənənələri baxımından siqlətini artırmışdır. Cümhuriyyətin süqutundan sonra XI Qızıl ordunun işğalına qarşı 1920-ci ilin son may günləridə Gəncə üsyanının baş verməsi bu şəhərin özünün tarixi ənənələrinə sadiq qaldığından xəbər verirdi. Sovet dövründə də Gəncə və onun ətrafında bir çox hadisələr baş vermişdir ki, bunun da nəticəsində milli ruhun ifası olmuş “Gəncə” adı unutdurulmağa çalışılmışdır. Gəncədə baş verən bu hadisələr bədii düşüncədə yeni bir istiqamətin ortaya çıxmasına səbəb olmuşdur.

Azərbaycan poeziyasında Gəncə mövzusunun dərindən və əhatəli şəkildə araşdırılması müasir ədəbiyyatşünaslığımızın qarşısında duran ən aktual mövzulardan biridir. Gəncə şəhəri xalqımızın mədəni, elmi mərkəzi kimi onun ruhunda yaşamış, vətənin azadlığının, müstəqilliyinin carçısı, gələcəyinin təməli kimi xalqda ümid işığı yandırmışdır. Bu şəhər, milli özünüifadənin rəmzi kimi mahnıların, nəğmələrin yaranmasına istiqamət vermiş, Gəncə

haqqında yazılan şeirlər eldən-elə, dildən-dilə yayılmışdır. Gəncə şəhərinin Azərbaycan poeziyasında özünəməxsus yer tutması Comərd Qəssab, Usta Bəndər, Cavad xanın rəmzləşmiş qəhrəmanlıqları, şəhər əhalisinin istiqlaliyyət ruhu ilə yadellilərə qarşı dirənişi, azadlıq uğrunda həlak olanların qeyri-adi mübarizliyi və vətənsevərliyi, dəfələrlə dağıntılardan dirçəlib yüksələn şəhərin alınmaz, basılmaz qala ruhu xalqımızın arzu və istəklərini əks etdirməsi ilə bağlıdır. Gəncənin xalqımızın ruhunda, milli düşüncəsində azadlıq və müstəqilliyi yaşatması qorxusu Çar Rusiyası dövründə də, Sovetlər Birliyi dönəmində də onun adının dəfələrlə dəyişdirilməsinə səbəb olsa da, milli ruhdakı bu ideyalar ölməmiş, həmişə diri qalmışdır.

Gəncə həm də Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Qivami Mütərrizi, Mirzə Şəfi Vazeh, Əli Nəzmi, Əli Razi Şamçızadə və başqa onlarla klassikin vətəni olması ilə yadda qalıb. Həyatının müəyyən bir hissəsini Gəncədə keçirən, buranı özünə ikinci vətən hesab edən Qətran Təbrizi yaradıcılığı da bu ədəbi mühiti təmsil etmişdir. XX əsrin əvvəllərindən Gəncə ədəbi mühiti siyasi-ictimai hadisələr axarında daha da canlanaraq Azərbaycan gerçəkliyində ön mövqeyə çıxmışdır. Həyatının və yaradıcılığının müəyyən dövrü Gəncədə keçən və bu ədəbi mühitin bir hissəsi olan Hüseyn Cavid, Abbas Səhhət, Məhəmməd Hadi, Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Mir Cəlal, Həmid Araslı, Nigar Rəfibəyli, Rəsul Rza, Mikayıl Rzaquluzadə, Əhməd Cəmil, Zeynal Xəlil və onlarla şair, yazıçı və ədəbiyyatşünasların yaradıcılığında da Gəncə mövzusu və onun rəmzi özünüifadəsi başlıca yer tutmuşdur.

XX əsrin 20-ci illərində Gəncə ədəbi mühiti yeni bir mərhələdə formalaşmışdır. "Qızıl qələmlər" ədəbi cəmiyyətinin 1927-28-ci illərdə Gəncədə formalaşan özəyi bu ədəbi prosesi zənginləşdirən amillərdən olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin Gəncə Bölməsinin yaranması və bu mühitdən çıxan bir çox nümayəndələrin (Əhməd Cavad, Mir Cəlal, Həmid Araslı, Nigar Rəfibəyli, Əhməd Cəmil, Zeynəl Xəlil və b.) ədəbi həyatda aparıcı qüvvəyə çevrilməsi, onlardan bəzilərinin sonralar AYİ-a rəhbərlik etmələri (Mikayıl Rzaquluzadə, Seyfulla Şamilov, Məmməd Kazım Ələkbərli, Səməd Vurğun) və ya Azərbaycan ədəbiyyatının görkəmli

nümayəndələri olmaları bu ədəbi mühitin əhəmiyyətini artırmışdır. Sovet dövründə Gəncə, Göygöl, Kəpəz, Maralgöl kimi təbiət mənzərələrinin tərənnümü, keçmişə yönəlik milli-mənəvi dəyərlərin təsviri rəmzlərlə ifadə olunmuşdur. Zaman-zaman Gəncə və onun simvolları ədəbiyyatımızda tərənnüm və təsvir obyektinə çevrilmişdir.

Problemin araşdırılmasına gəldikdə, demək lazımdır ki, müxtəlif vaxtlarda Gəncə mövzusuna müraciətlər olmuşdur. Qətran Təbrizi, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə bağlı aparılan tədqiqatlarda Gəncə ədəbi mühitinə də nəzər yetirilmişdir. Rafael Hüseynovun "Məhsəti necə varsa", "Söztək gözəl Məhsəti",, Cəlal Qasımovun "Abdulla Surun həyatı və yaradıcılığı", Qivami Qazıyevin "Gəncə ədəbi mühiti (1900-1920)" və s. əsərlərində bu və ya digər dərəcədə Gəncənin müxtəlif dövrlərinin ədəbi mühiti araşdırılır[1]. Lakin Azərbaycan poeziyasında Gəncənin milli özünüifadə rəmzi ilə bağlı ayrıca tədqiqat əsəri yazılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin əsas obyektini Gəncə şəhəri, burada yaşayıb yaradan yazarların Gəncə, onun təbiəti, simvolları ilə bağlı yazdığı şeirlər təşkil edir. Azərbaycan poeziyasında Gəncə mövzusu ən çox işlənən və milli özünüifadənin rəmzinə çevrilən yerlərdən biridir. Azərbaycan şairlərinin yaradıcılığında Gəncə və gəncəlilər mövzusu, klassik ədəbiyyatdan tutmuş, XX əsr və yeni dövr Gəncə və onun insanlarının Azərbaycan poeziyasındakı inikası mühüm yer tutur. Tədqiqatın əsas predmetini də məhz bu şairlərin yaradıcılığında dəyişən və yeniləşən milli özünüifadənin simvol və rəmzləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Qədim dövrdən tutmuş çağdaş mərhələyədək Gəncə, gəncəlilər və onun təbiəti, simvolları, özünüifadə rəmzləri baxımından araşdırılması dissertasiyanın əsas

---

[1] Hüseynov, R. Söztək gözəl Məhsəti / R.Hüseynov. – Bakı: Şərq-Qərb, - 2013. - 100 s.; Hüseynov, R. Məhsəti necə varsa / R. Hüseynov. - Bakı: Yazıçı, - 1989. - 336 s.; Qasımov, C. Abdulla Surun həyatı və yaradıcılığı / C.Qasımov. – Bakı: Təhsil, - 2004. - 136 s.; Qazıyev, Q.N. Gəncə ədəbi mühiti (1900-1920):/ Filologiya üzrə fəlsəfə doktoru dis. / - Gəncə, 2011, - 154 s. və s.

məqsədidir. Bunun üçün aşağıdakı başlıca məsələlərin də həlli məqsədəuyğun hesab edilmişdir:

– Klassik Azərbaycan şairlərinin yaradıcılığında Gəncə və gəncəlilər mövzusunu təhlil etmək;

– Qətran Təbrizi qəsidələrində Gəncə mövzusunun tarixi aspektlərini araşdırmaq;

– Müxtəlif dövrlərdə Gəncə adının dəyişdirilməsinin və bunun tarixi, ictimai-siyasi səbəblərini və bunun poeziyada əks olunmasını araşdırmaq;

– Gəncənin işğallara qarşı müqavimətinin ədəbiyyatımızda və azadlıq uğrunda mücadilənin ictimai düşüncədə əsas simvollarından birinə çevrilməsini təhlil etmək;

– Sovet dönəmində Gəncə adının yaşadılması və qaytarılması uğrunda mübarizədə poeziyanın xidmətini araşdırmaq;

– Ə.Cavad, M.Müşfiq, S.Vurğun yaradıcılığında Gəncə mövzusu və onun ayrı-ayrı xüsusiyyətlərinin rəmzi ifadəsini araşdırmaq;

– Azərbaycan şair və bəstəkarlarının Sovet dövründə yaratdıqları Gəncə mahnılarının etirazçı mahiyyətini təhlil etmək;

– XX əsrin birinci yarısında Azərbaycan poeziyasında Gəncə mövzusunu araşdırmaq;

– Əhməd Cəmil, Nigar Rəfibəyli, Zeynal Xəlil, Ələkbər Ziyatay poeziyasında Gəncə mövzusunu təhlil etmək;

– Gəncə ədəbi mühitində yazıb-yaradan çağdaş Azərbaycan şairlərinin yaradıcılığında Gəncə mövzusunu araşdırmaq.

**Tədqiqat metodları.** Tədqiqat işində ədəbi-bədii materialların istifadəsi zamanı tarixilik prinsipi əsas götürülmüşdür. Çağdaş elmi-nəzəri, tarixilik prinsipindən və ədəbi materiallardan çıxış edərək milli özünüifadə rəmzləri sistemli dəyərləndirilərək təhlil edilmişdir. Gəncə mövzusunun Azərbaycan ədəbiyyatı tarixindəki yerini və mövqeyini müəyyənləşdirmək və nəticələrə gəlmək tədqiqatın metodoloji aspektlərindən biridir. Dissertasiyada müasir elmi-nəzəri ədəbiyyatdan istifadə olunmuş, mövzu ilə bağlı görkəmli ədəbiyyatşünasların əsərlərinə mümkün olduğu qədər istinadlar edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Gəncə mövzusunun

özünüifadə rəmzi kimi Azərbaycan poeziyasında işlənilməsi problemini tədqiq etmək üçün aşağıda göstərilən müddəaların müdafiəyə çıxarılması nəzərdə tutulmuşdur:

– Gəncə milli özünüifadənin rəmzi kimi tarixi, milli-mənəvi qaynaqlarda özünəməxsus yer tutur;

– Gəncə müxtəlif dövrlərdə hücuma məruz qalmış və Gəncə adının dəyişdirilməsinin ictimai-siyasi səbəbləri olmuşdur;

– Gəncə ədəbi mühitində milli özünüifadənin forma və məzmunu müxtəlif və zəngindir;

– Qətran Təbrizinin həyatında Gəncə dövrü mühüm əhəmiyyət kəsb etmiş və Gəncənin ictimai-siyasi, ədəbi-mədəni mühiti onun qəsidələrində əks olunmuşdur;

– XII əsrdə Gəncə ədəbi mühitində “Gəncəvi” nisbəli Azərbaycan şairləri yazıb, yaratmışlar. Nisbənin Gəncə şəhərinin tanınıb-təbliğ edilməsində böyük rolu olmuşdur;

– Gəncədə müxtəlif tarixi dövrlərdə ədəbi məclislər yaranıb, fəaliyyət göstərmişdir. Həmin məclislərin üzvü olan və orada toplaşan ədiblərin yaradıcılığı Gəncənin poetik obraz kimi işləkliyini təmin etmişdir;

–XX əsrin əvvəllərində Gəncə ədəbi mühitinin nümayəndələrinin yaradıcılığında milli özünüifadə imkanları zəngin olmuşdur;

– Əhməd Cavad yaradıcılığında Gəncə mövzusu xüsusi mövqeyə malikdir. Şairin “Göygöl” şeirində ictimai-siyasi rəmzi özünüifadənin təzahürləri əsas yer tutur;

– Azərbaycan şairləri daim Gəncə mövzusunu yaşatmış və bəstəkarlar sovet dövründə Gəncəyə həsr olunmuş mahnılar yaratmışlar;

– Gəncə mühitinin formalaşmasında bu mühitə kənardan qoşulan görkəmli ədəbi şəxsiyyətlərin böyük rolu olmuşdur;

– Azərbaycan Yazıçılar İttifaqı Gəncə şöbəsinin üzvləri olan ədiblərin yaradıcılığında Gəncə mövzusu zəngin bədii ifadəsini tapmışdır;

– XX əsrin II yarısında və çağdaş dövrdə Azərbaycan poeziyasında Gəncə mövzusu üzrə özünüifadə müxtəlifliyi genişlənmiş və inkişaf etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq Azərbaycan poeziyasında Gəncə mövzusu milli özünüifadənin rəmzi kimi sistemli şəkildə tədqiqata cəlb olunur. Gəncə mövzusunun tarixi, inkişaf yolu, ayrı-ayrı şairlərin yaradıcılığındakı özünifadə imkanlarının tədqiqi onun elmi yeniliyini şərtləndirən ən mühüm amillərdən biridir. Zaman dəyişdikcə Gəncə mövzusunun zənginləşməsi, milli azadlıq çalarlarının əlavə olunması, yeni simvol və rəmzlərin daxil olmasının təzahürü elmi yenilik kontekstində nəzərdən keçirilir. XX əsrin əvvəllərində problemə maarifçi yanaşma, Cümhuriyyət dövründə milli kontekst, sovet dövründə isə mətnaltı poetik təsvir və tərənnümün təhlili problemin yeniliyini şərtləndirir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan poeziyasında Gəncə mövzusu müasir elmi-nəzəri dəyərlər baxımından sistemli şəkildə tədqiq olunmuşdur. Tədqiqat işinin nəticələri Azərbaycan ədəbiyyatı tarixində mühüm yer tutan şairlərin yaradıcılığı müstəvisində aparılmışdır. Dissertasiyada əldə olunan elmi qənaətlərdən Azərbaycan ədəbiyyat tarixində, ədəbiyyatşünaslıqda tədqiqat aparan mütəxəssislər, ali məktəblərin filologiya fakültəsinin tələbələri yardımçı vəsait kimi istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları iddiaçının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda dərc edilmiş məqalələrində, həmçinin beynəlxalq və respublika səviyyəli elmi konfranslarda etdiyi çıxış və məruzələrində, tezislərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzi.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya Giriş, hər biri üç paraqraf olan üç fəsil, Nəticə və İstifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın Girişi 14 605 şərti işarə, I fəsli 65 474 şərti işarə, II fəsli 83 323 şərti işarə, III fəsli 75 318 şərti işarə, Nəticəsi 7602 olmaqla ümumi həcmi 246 323 şərti işarədir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları göstərilmiş, elmi yenilikləri və müdafiəyə çıxarılan müddəaları, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiya işinin **"Azərbaycan klassik şairlərinin həyatında Gəncə dövrü və yaradıcılığında Gəncə mövzusu"** adlanan I fəsli üç paraqrafa ayrılır. **"Gəncənin milli özünüifadə rəmzi kimi səciyyələndiyi tarixi, ədəbi-mədəni qaynaqlar"** adlı ilk paraqrafda mövzu ilə bağlı qaynaqlara müraciət edilir. Belə ki, Gəncə Azərbaycanın ən qədim şəhərlərindən biridir. Gəncə haqqında orta əsr qaynaqlarında xeyli məlumat və qeydlər vardır. X əsr ərəb coğrafiyaçısı və səyyahı Əl-İstəxri "Kitab Məsalik əl-Məmalik" əsərində göstərir ki, *"Bərdədən Gənzəyə (Gəncə Gənzə kimi verilmişdir) – bura şəhərdir – 9 fərsəx, Gənzədən Şəmkirə 10 fərsəxdir."*[2] XII-XIV əsrlər ərəb tarixçisi Əbülfida, XIV əsr fars təzkirəçisi və coğrafiyaşünası Həmdullah Qəzvini, XVII əsr coğrafiyaşünas Sadiq İsfahani və adını çəkmədiyimiz bir çox alimlərin də Gəncənin coğrafi yerləşməsi haqqında qeydləri vardır. XVII əsrdə Gəncədə olmuş türk səyyahı Övliya Çələbi "Səyahət kitabı"nda[3] isə şəhərin əhalisinin sayı, sənətkarlıq xüsusiyyətləri, tikililəri və s. haqqında məlumat vermişdir. Yaqut Əl-Həməvi (XII-XIII əsrlər) "Mucəm əl-Buldan" əsərində Arrandan, onun şəhərlərindən söz açarkən *"Onların içində Gənzə şəhəri (xalq onu Gəncə adlandırır), Bərdə, Şəmkir, Beyləqan şəhərləri vardır"*[4] – deyə, yazırdı. XIV əsrdə yaşamış görkəmli şair, tarixçi, coğrafiyaşünas Həmdullah Qəzvini isə *"Bütöv xəzinədir Arranda*

---

[2] Azərbaycan tarixi üzrə qaynaqlar / Tərtibçi və red. S.Əliyarlı. – Bakı: Çıraq, – 2007. – s. 129.

[3] Челеби, Э. Книга путешествия (Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана) / Э. Челеби. – Москва: Наука, – Выпуск 3. – 1983. – s.286-287.

[4] Azərbaycan tarixi üzrə qaynaqlar / Tərtibçi və red. S.Əliyarlı. – Bakı: Çıraq, – 2007. – s. 183.

*Gəncə"*[5] – deyərək onun mülayim iqlimini, bol bəhrəli torpağını mədh edir.

Həyatının böyük bir hissəsini Gəncədə keçirmiş, XI əsrdə paytaxtı Gəncə olan Şəddadilər dövlətinin (951-1174) sarayında nüfuz qazanmış Qətran Təbrizi yaradıcılığında da Gəncənin ictimai-siyasi, ədəbi-mədəni mühiti ilə bağlı tarixi məlumatlara rast gəlinir. Həmin dövrdə Gəncə Qafqazın iri ticarət və mədəniyyət mərkəzinə çevrilmişdir.

XVII əsrdə Səfəvi hökmdarı I Şah Abbas şəhərin basqınlar və təbii fəlakətlərdən dağılan qədim yerindən xeyli aralıda yeni şəhər saldırmış və şəhər onun adı ilə Abbasabad adlandırılmışdır. 1804-cü ildə isə Gəncə xanı Cavad xanın rus işğalına qarşı qəhrəmancasına vuruşub həlak olması çarı da, Gəncəni mühasirəyə alan rus qoşunlarının komandanı Sisianovu da qorxuya saldığından şəhərin adı dəyişdirib çarın arvadının şərəfinə Yelizavetpol adlandırılmışdır. Bu tarixi haqsızlığa Azərbaycan Xalq Cümhuriyyətinin dövründə son qoyulmuş və Gəncə adı yenidən qaytarılmışdır.

Azərbaycan xalqının mübarizlik tarixində çox mühüm yeri olan Gəncə üsyanı müstəmləkəçilik əsarətinə qarşı xalqın ən böyük və güclü müqaviməti idi. Bu olaylar Gəncənin xalqın ruhunda, canında azadlıq ideyalarının yaşadığını və ölməzliyini sübut edirdi.

1935-ci ildə Gəncənin adı yenidən dəyişdirilərək bolşevik S.M.Kirovun şərəfinə Kirovabad adlandırıldı. Gəncə adı isə qadağan edildi. Bununla belə, sovet dövründə Milli özünütəsdiqin rəmzi olan Gəncə adının yenidən bərpa olunmasına çalışan ziyalılarımız qədim şəhərin adına şeirlər yazır, musiqilər bəstələyirdilər. Sovet imperiyası 70 il mövcud olduğundan Gəncənin adı da özünə gec qaytarıldı. 1989-cu ildə tarixi ədalətsizlik sona çatdı. Nəticə olaraq, Gəncə şəhəri tarixən keçdiyi mürəkkəb, ziddiyyətli ictimai-siyasi hadisələrə baxmayaraq, daim mədəniyyət və ədəbiyyat mərkəzi statusunu özündə qoruyub saxlamış, milli özünüifadənin simvoluna çevrilmişdir.

I fəslin **"Gəncənin ictimai-siyasi, elmi və ədəbi-mədəni**

---

[5] Yanar, M. Gəncənin dastanı (Şeirlər. Ədəbi-bədii, tarixi salnamə): [2 kitab] / M.Yanar. – Bakı: Azərnəşr, - k.2. – 2018. – s. 10.

**mühiti XI əsr Azərbaycan poeziyasında"** adlı 2-ci paraqrafında XI əsrdə yaşayıb-yaratmış və həyatının mühüm hissəsini Gəncədə keçirmiş Qətran Təbrizinin şəhərin ictimai-siyasi, ədəbi-mədəni mühitinin əks olunduğu qəsidələrinə müraciət edilir. Şair bir şeirində Arran hökmdarı Əbülhəsən Əli Ləşgərini mədh edərək yazır: *"Sarayın cənnət bağı kimi bəzəklidir,// Döyüşkən qoşun səndə, elm və mədəniyyət ordusu səndədir! // Qüdrətli ordu səndə, əsaslı bilik səndədir!"*[6]

Mədhiyyədə XI əsr Gəncəsinin bir növ təsviri verilmişdir. Şair "cənnət" deyərkən, hökmdarın sarayı yerləşən Gəncəni nəzərdə tutduğunu düşünürük. Bu da həmin dövrdə Gəncənin ictimai-siyasi cəhətdən inkişafına işarədir. Eyni zamanda bu sətirlərdən aydın olur ki, həmin vaxt şəhərdə çox sayda elmli, savadlı alimlər yaşayırmış. Q.Təbrizi "elm və mədəniyyət ordusu" dedikdə isə məhz bunu nəzərdə tuturdu.

Q.Təbrizinin şeirlərində ustad adlandırdığı Əbül Müəmmər, Əbül Əli kimi bir çox sənətkarların XI əsrdə məhz Gəncədə yaşayıb yaratmaları da səbəbsiz deyildir. Çünki tarixi faktlar da təsdiqləyir ki, həmin dövrdə dövlətin paytaxtı kimi, "*Gəncənin təhlükəsizliyi yaxşı təmin edildiyindən dövrün görkəmli klassiklərinin, alimlərinin və sənətkarlarının bir hissəsi Gəncədə rahatlıq tapır, yaşayıb yaradırdılar"*[7]. Q.Təbrizi və onun əsərlərində mədh etdiyi böyük sənətkarlar şəhərin elmi, ictimai-siyasi, ədəbi-mədəni həyatına müsbət təsir göstərmiş və XII əsrdə Məhsəti Gəncəvi, Nizami Gəncəvi kimi şəxsiyyətlərin formalaşmasına zəmin yaratmışdır.

I fəslin **"Gəncəvi" nisbəli Azərbaycan şairləri və Gəncənin sənət, peşə adamlarının tərənnümü"** adlı sonuncu paraqrafında XII əsrdə Gəncə ədəbi mühitində formalaşan "Gəncəvi" nisbəsi ilə yazıb-yaradan şairlərin həyat və yaradıcılığından bəhs edilir. Bu şairlər öz əsərləri ilə Gəncənin şöhrətini Yaxın və Orta Şərq ölkələrinə yaymış, şəhərin Azərbaycan mədəniyyətində, poeziyasında yerini müəyyənləşdirmişlər.

---

[6] Təbrizi, Q. Divan / Q.Təbrizi. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, – 1967. – s. 30.

[7] Azərbaycan tarixi /red. Z. M. Bünyadov (ön söz.), Y. B. Yusifov; rəyçi S.S.Əliyarov, Q. M. Bayramov, İ. A. Babayev. – Bakı: Çıraq, – c.1, – 2007. – s. 295

Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi şeirin ilk nümunələrini yaratmış Əbülüla Gəncəvi "Andnamə" qəsidəsində Gəncə və gəncəlilərlə bağlılığına işarə edərək haqlı olaraq, gələcəkdə gəncəlilərin onun kimi bir şəxsiyyətlə öyünəcəyini yəqin etmişdir.

XII əsrdə Gəncədə fəaliyyət göstərən şairlərdən Qivami Mütərrizi Gəncəvinin zəmanədən açıqca şikayətlənən poeziyası Azərbaycan ədəbiyyatında özünü göstərən humanizmin məhz Gəncə ədəbi mühitində formalaşdığını sübut edir.

XII əsr Şərq dünyasında qadın azadlığı probleminin var olduğu bir dövrdə Gəncədə sözü, sənəti, şəxsiyyəti ilə seçilən qadın şairlərin bədii fəaliyyəti burada ictimai mühitin, düşüncənin intibah dövrünə məxsus fərqliliyini göstərirdi. XII əsr Gəncə ədəbi mühitində Məhsəti Gəncəvinin özündən sonra bir sıra şairə davamçıları da (Rəziyyə Gəncəvi, Doxtəri-Xətibi Gəncə, Doxtəre-həkim Kav, Doxtəre-Səti, Doxtəre-Salar) sənət meydanına gəlmişlər. XIII əsr Azərbaycan şairi Cəmaləddin Xəlil Şirvaninin tərtib etdiyi "Nüzhətül məcalis"[8] adlı rübailər toplusunda həmin şairələrlə yanaşı, XII–XIII əsrlərdə Gəncədə yaşayıb-yaradan daha 24 nəfər "Gəncəvi" nisbəli şairlərin adları və yaradıcılıq nümunələri də öz əksini tapmışdır.

Azərbaycan intibah dövrünün tanınmış qadın şairi, rübai ustası Məhsəti Gəncəvinin sadə və əməksevər xalqa, sənət-peşə adamlarına hörmət və məhəbbət izhar edilən şəhraşublarında dərzi, papaqçı, çəkməçi, qumələyən, qəssab, dülgər və s. kimi sənətkarların sənətinə vurğunluq bildirilir.

*"Həvəslə, şövqlə papaqçı canan,*
*Papaqlar tikirdi atlas parçadan.*
*Min əhsən söylədim hər naxışına,*
*Dördünə biri də bəsiydi haman.*" [9]

---

[8] Şirvani, C. X. Nüzhətül-məcalis / C. X. Şirvani. Farscadan tərcümə, ön söz və şərhlər f.ü.e.d. Nəsib Göyüşov. – Bakı: TEAS Press Nəşriyyat evi, – 2016. – s. 19-21.
[9] Yusifli, X. Məhsəti Gəncəvi (900) / X.Yusifli. – Gəncə: Elm, – 2013. – 219 s.

*دلدارِ کُلَه دوزِ من از رویِ هوس*
*می دوخت کلاهی زنسیخ و اطلس*
*بر هر تَرْکی هزار زه می گفتم*
*با آنکه چهار ترکرا یک زه بس*[10]

Müəllif bununla şəhərdə sənətkarlığın çiçəkləndiyini, çoxsaylı olduğunu göstərir və beləcə, Gəncənin Yaxın və Orta Şərq ölkələrində tanındığını bəlli edir.

Məhsəti Gəncəvinin ədəbi irsinin toplanıb saxlanması, eyni zamanda Gəncə ədəbi mühitinə bələd olmaq yönümündən Gövhərinin "Məhsəti və Əmir Əhməd" əsəri olduqca dəyərli mənbədir. Dastanda Gəncədə ədəbi mühitin ən zəngin və qaynar olduğu Xərabat məhəlləsindəki yığıncaqlarda ictimai mövzularda söz-söhbət getdiyi kimi, şeir, musiqi və rəqsə də yer ayrıldığı bildirilir. Məlahətli səsə və musiqi ifa etmək bacarığına malik olan Məhsəti xanımı məhz bu məziyyətlərinə görə Xərabatdan ayrı tutmaq olmaz.

Azərbaycan bədii fikrinin inkişafında yeni, orijinal bir mərhələ təşkil edən Nizami Gəncəvi yaradıcılığı da bəşəri ideyaları, fəlsəfi düşüncəsi, insan konsepsiyası, qadın obrazları, sevgi və məhəbbət xətti və bütövlükdə "Xəmsə"si ilə Gəncəni, Azərbaycanı bütün Şərqdə tanıtmış, dünya poeziyasında özünəməxsus yer tutmuşdur. Eləcə Şərq xalqları ədəbiyyatında XIII-XX əsrlər aralığında Nizami mövzuları əsasında 300-ə yaxın yazarın 600-dən çox əsəri meydana gəlmişdir. Dahi şair əsərlərində dönə-dönə doğma vətəni Gəncənin adını çəkmiş, özünün Gəncədən olduğunu və doğma yurduna məhəbbətini bəyan etmişdir. . Dahi şairin *Gəncə yaxır Harutu, o, Babilim,//Zöhrə könül göylərə nur qəndilini*[11] - beytindən belə anlaşılır ki, Gəncə yüksək mərtəbədə dayanan şeirin, dünyanın nəzərini özünə cəlb edən mənalı, sirli sözün məskənidir.

---

[10] Meier, V.F. Die schöne Mahsati. Ein Beitrag zur Geschichte des Persischen Vierzeilers / V.F.Meier. – Wiesbaden: Franz Steiner Verlag GMBH, – Band 1. – 1963. – s. 214

[11] Gəncəvi, N. Sirlər xəzinəsi / Ön sözün müəl. və elmi red. X.Yusifli / N.Gəncəvi. – Gəncə: GDU, - 2012. – s.60.

*زهرهَ من خاطر انجام فروز[12]"*
*"بابل من گنجهَ هاروت سوز*

XII yüzillikdə "Gəncəvi" nisbəli şairlərdən biri də Nizami Gəncəvinin oğlu Məhəmməd Gəncəvidir. Nizaminin "Xəmsə"sində rast gəlinən "Oğlum Məhəmmədə" adlı mənzumələr də bunu təsdiq edir. Tədqiqatçı prof. Xəlil Yusifli 1998-ci ildə Tehranda Məhəmmədin şeiri olan cüngü əldə etdiyini bildirir və qeyd edir ki, *"Məhəmməddən qalan ancaq bir beyt idi. Beytin üzərində "Məhəmməd vələde-Şeyx Nizami" (yəni "Şeyx Nizaminin oğlu Məhəmməd") sözləri vardır"*[13].

"Gəncəvi" nisbəsi ilə yazıb-yaradan şairlər Azərbaycan, eləcə də, dünya poeziyasında öz izlərini salırdılar. Həmin şairlərin yaradıcılığında Gəncənin ilhamla vəsf edilməsi, həm də onun qədimliyini və gözəlliyini, elm, mədəniyyət mərkəzi olduğunu təsdiqləyir.

Bu fəsildə aparılmış təhlillər və qənaətlər "Ə.Cavad və H.Arif poeziyasında Gəncə", "Məhsətinin Gəncə şəhraşubları", "Milli azadlıq simvolu - Gəncə", "Nizami Gəncəvi "Xəmsə"sində Gəncə", "Значимое место города Гянджи в литературной и общественно-политической жизни Азербайджана", "Поэты XII века, творившие под псевдонимом Гянджеви"[14] adlı məqalə və tezislərdə dərc edilmişdir.

---

[12] نظامی گنجوی.مخضن الارار.- گنجه:علم، - ۲۰۱۴ Gəncəvi, N. Məxzənül-əsrar (farsca) / N.Gəncəvi. – Gəncə: Elm, – 2014. – s.48

[13] Yusifli, X. Nizami Gəncəvinin şəcərəsi / X.Yusifli, S.Pişnamazzadə. - Gəncə: Elm, - 2012.-s.51-52.

[14] Verdiyeva, T. Ə.Cavad və H.Arif poeziyasında Gəncə // – Bakı: Filologiya məsələləri, – 2017. № 12, – s. 365-373; Verdiyeva, T. Məhsətinin Gəncə şəhraşubları // – Gəncə: GDU. Elmi xəbərlər jurnalı, – 2021. № 2, – s.373-379; Verdiyeva, T. Milli azadlıq simvolu – Gəncə // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2019. № 1(16), – s.191-198; Verdiyeva, T. Nizami Gəncəvi "Xəmsə"sində Gəncə // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2017. №1(13), – s.94-103; Вердиева, Т. Значимое место города Гянджи в литературной и общественно-политической жизни Азербайджана // – Алматы: Вестник КазНУ. Серия филологическая, – 2019. № 2(174), – стр. 35-40; Вердиева, Т. Поэты XII века, творившие под псевдонимом Гянджеви // Международной Научно-практический конфранс, – Пятигорск: – 25-26 мая, –2017, – стр. 31-36.

Dissertasiyanın **"XIX əsrdə və XX yüzilin əvvəllərində Gəncə mövzusu milli özünütəsdiqin simvolu kimi"** adlanan II fəsli də üç paraqrafa ayrılır. **"Gəncə ədəbi məclisi və Gəncə poetik obraz kimi"** adlı ilk paraqrafda XIX əsr Gəncə ədəbi mühitində mövzunun özünütəsdiqi araşdırılır. Bu zaman Azərbaycanda görkəmli maarifpərvər, şair və müəllim Mirzə Şəfi Vazehin təşkil etdiyi ilk ədəbi məclis – "Divani hikmət"in Gəncədə yaranmasının əsasında müəyyən ənənə dayanırdı. Bu ədəbi məclis Gəncədə yaşayıb-yaradan şairlərlə (Şeyx İbrahim Qüdsi, Mirzə Mehdi Naci, Hacı Abbas Şölə və b.) yanaşı, əcnəbi yazarları (İ.İ.Qriqoryev, İ.A.Slivitski, Q.Rozen, F.Bodenştedt və b.) da cəlb etmişdir. Ədəbi irsi və yenilikçi fikirləri ilə Azərbaycan ədəbiyyatı sahəsində maarifçi alimlərin yaranmasına nail olan Mirzə Şəfinin şeirləri ölümündən sonra da dünya ədəbiyyatşünaslığında marağa səbəb olmuş və ingilis, fransız, italyan, norveç və s. dillərə tərcümə edilmişdir. Beləliklə, Gəncə XIX əsrin əvvəllərində böyük şair və maarifçi Mirzə Şəfi Vazehin vətəni kimi dünyanın böyük bir hissəsində diqqət mərkəzinə çevrildiyi kimi, gəncəli şair Mirzə Şəfi Vazeh özü də yaradıcılığı, şəxsiyyəti ilə Gəncənin milli özünüifadə rəmzinə çevrilmişdir.

"Divani hikmət" ədəbi məclisinin üzvlərindən olan Gəncədə yaşayıb-yaradan şairlərdən Ağa İsmayıl Zəbih yaradıcılığına nəzər saldıqda, XII-XIII əsr Gəncəsinin ruhu və ifadə formalarının mühüm yer tutduğunu görmək mümkündür. A.Zəbihin "Gəncə əsnafi" müxəmməsi Məhsətidən sonra bu şəhərin sənət və peşə sahiblərinə həsr edilmiş ən maraqlı şəhrəngizdir və janrın ilk nümunəsidir ki, müxəmməs-müstəzad şəklində qələmə alınmışdır. M.Gəncəvidən fərqli olaraq A. Zəbih Gəncə əsnafının hiyləgər əməllərindən söhbət açırdı. Bu müxəmməs XIX əsr Gəncə haqqında dolğun və müfəssəl məlumat verən ən etibarlı etnoqrafik mənbələrdən sayıla bilər.

Mirzə Şəfi Vazehin Tiflisdə yaşadığı dövrdə Gəncədə "Divani hikmət"in fəaliyyətinə rəhbərlik edən və şairlik istedadı ilə yanaşı xəttatlıq və həkimlik bacarığı ilə də şöhrət qazanan Mirzə Mehdi Naci bir qəzəlində Gəncə torpağını vəsf edərək onun əhlinin müdrik insanlardan ibarət olduğunu bildirir.

"Divani hikmət" ədəbi məclisinin əsas üzvlərindən biri Molla Abbas Şölənin yazdığı şeirlərin əksəriyyəti Gəncənin özünəməxsus

xüsusiyyətlərini, şəhərdə vaxtaşırı cərəyan edən tarixi hadisələri, Gəncə əhalisinin ədəb və adətini təcəssüm etdirən ədəbi nümunələrdir. Şair Gəncənin tarixən başına gələn bəlaları yanğı ilə qələmə alır və şəhərin müstəmləkəçilik tarixini xatırladaraq yazır:

*"Gəhi Osmanlının, gəh rusun oldun,*
*Nəsib oldun gəhi İranə, Gəncə!"*[15]

Beləcə, maarifçi ziyalı insanların yetişməsinə şərait yaradan, öz nüfuzu ilə beynəlxalq bir ədəbi təşkilata çevrilən "Divani-hikmət" ədəbi məclisi Gəncədə formalaşmaqla yarandığı dövrdən qədim şəhərin ictimai-ədəbi həyatında mühüm rol oynamış, eyni zamanda, həm Gəncəni, həm də onun ziyalılarını dünyada təbliğ etmişdir.

XIX əsrin əvvəllərində Gəncə adına yeni bir simvol daxil olmuşdur. Bu, Gəncə əhalisinin rus işğalına qarşı dirənişinin simvoluna çevrilmiş Cavad xanın adının rəmzləşməsi ilə bağlıdır. Əslən Gəncədən olan Həsən adlı şair Cavad xanın ölümündən dolayı kədərləndiyini, onun həlak olmasıyla Gəncə şəhərinin faciəsinin eyni vaxtda baş verdiyini təsvir edərək hamını baş vermiş hadisədən xəbərdar edirdi:

"*Görən, bilən, eşidənlər yansınlar,*
*Gör nə yaman oldu halı Gəncənin.*
*Bizə imdad etməz padişahzadə,*
*Məğrur tutulubdur yolu Gəncənin?"*[16]

Əbdürrəhman ağa Dilbaz oğlu "Gəncə qırğını" adlı şeirində rus ordusunun Cavad xana və Gəncə əhalisinə qarşı münasibətindəki namərdliyi və amansızlığı təsvir edirdi:

*"Ey qazilər, gəldi qəzadan bəla,*
*Bir olmaz müsibət dövran eylədi.*

---

[15] Köçərli, F. Azərbaycan ədəbiyyatı: [2 cilddə] / F.Köçərli. - Bakı: Avrasiya Press, - c.2. – 2005.-s.198.
[16] Mümtaz, S. Azərbaycan ədəbiyyatı, El şairləri / S. Mümtaz. –Bakı: Azərnəşr, – 1927. – s.62.

*Yüz verdi qovğayi-dəşti-Kərbəla,*
*Ruslar Gəncə şəhrin viran eylədi”*[17].

Həmin tarixi hadisələr zamanı Gəncə işğal olunsa da, milli mücadilə əzmi heç zaman onu tərk etmədi və Azərbaycanın mücadilə simvoluna çevrildi. Azərbaycan Cümhuriyyətinin süqutundan sonra işğala qarşı dirənən yenə də 1920-ci il Gəncə üsyanı oldu. Bununla Gəncə özünün azadlıq və müstəqillik ideyasına sadiq qaldı.

Bu fəslin **“Gəncə və gəncəlilər XX əsrin ilk onilliklərində poeziyada”** adlı 2-ci paraqrafında XX əsrin əvvəlləri tədqiq olunur. Bu dövrdə Azərbaycan poeziyasında Gəncə mövzusuna çox sayda peşəkar şair, yazıçı, ustad sənətkarların yaradıcılığında rast gəlmək mümkündür. Gəncədə hökm sürən feodal münasibətlərinin əleyhinə çıxan ziyalı nəslin Abdulla Tofiq Sur, Əli Razi Şamçızadə, Mirzə Abbas Abbaszadə, Əli Nəzmi, Mirzə Məhəmməd Axundzadə, Cavad bəy Rəfibəyov və b. kimi nümayəndələri geriliyin aradan qaldırılmasını maarifin yayılmasında görürdülər.

Böyük maarifçilərdən Abdulla Sur yalnız pedoqoji fəaliyyətlə kifayətlənməyərək bədii yaradıcılıqla da məşğul olur, dövri mətbuatda ictimaiyyətin marağına səbəb olan və tərbiyə, maarif, ədəbiyyat məsələlərinə dair məqalələrlə çıxış edirdi. 1906-cı ildə “İrşad” qəzetində nəşr olunan “Kiş deyirsən getməyir, vurursan ölür” məqaləsində erməni vandalizmini kəskin şəkildə ifşa edirdi.

Həyatını gənclərin maariflənməsinə sərf edən Mirzə Məhəmməd Axundzadə Vətənin milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəslə doğru şəkildə çatdırılması məqsədilə dahi şair Nizami Gəncəvi haqqında ilk kitab olan “Şeyx Nizami” əsərini yazmışdır. Onun nəvəsi kinodramaturq Nazim Rza haqlı olaraq qeyd edir ki, *“Şeyx Nizami” əsəri Azərbaycan ədəbiyyatşünaslığında şairin irsinə marağın oyanmasında mühüm*

---

[17] Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli / tərtib ed., fars dilindən tərc., ön söz. və şərhlərin müəl. H. R. Şeyxzamanlı; elmi red. X. Yusifli. – Gəncə: Elm, – 2020. – s. 203.

*rol oynamış, daha doğrusu, "Nizami mövzusu" bu kitabdan pöhrələnmişdir"*[18].

Nizami Gəncəvinin soyundan gələn Əli Şeyx Muxtar oğlu Şeyxzamanlının yaradıcılığı da Gəncəni ləyaqətlə təmsil etmişdir. Əli Şövqi 1919-cu ildə qələmə aldığı "Vətənim"adlı şeirində doğma yurdu Gəncəni belə vəsf edir:

*"İgidlər məskəni, şəhid məzarı,*
*Qazilərin oynağıdır Vətənim!"*[19]

Bu sətirləri oxuduqca göz önündə Usta Bəndər, Cavad xan kimi qəlbi Gəncə ilə döyünən, qılıncları Gəncə üçün ərşə qalxan qəhrəmanlar canlanır.

Ələkbər Ruhinin XX əsrin əvvəllərində Gəncənin ictimai mühitini əks etdirən iki həcvi günümüzədək gəlib çatmışdır. 1914-cü ildə yazılmış ilk həcvdə erməni vandallarının şəhərin böyük bazarında törətdikləri yanğından, 1916-cı ildə qələmə aldığı "Molla Ağası, paho" satirasında isə XX əsrin əvvəllərində Gəncənin ictimai vəziyyətindən danışılır. Şairin əsərlərində Vətənə sevgi hissləri də duyulur. Əli Şövqiyə yazdığı bir məktubda *"Gəncədən çıxdım, lakin qəlbim, ruhum bütün ordadır",*[20] - söyləyir.

Gəncə ədəbi mühitinin görkəmli simalarından biri Əli Razi Şamçızadənin yaradıcılığı XX əsrin əvvəllərində Gəncənin istər ədəbi-mədəni, istərsə də ictimai-siyasi mühitinin öyrənilməsində mühüm rol oynayır. Əli Razi 1904-cü ildə rus qoşunlarının Gəncəni işğal etməsinin 100 illiyi ilə əlaqədar yazdığı "100 il" adlı satirik şeirinə görə məhkəməyə çağırılmış və açıq-aşkar çar üsuli-idarəsini tənqid etdiyinə görə əziyyətlərə, zorakılığa məruz qalmışdır.

XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realist kimi tanınan, əslən Gəncədən olan Əli Nəzminin satiralarında, məqalə və

---

[18] İsrafiloğlu, N. Mirzə Məhəmməd Axundzadə / N.İsrafiloğlu. – Bakı: Mütərcim, – 2006. – s. 134

[19] Yusifli, X. Əli Şövqi Şeyxzamanlı. Hikmət yarpaqları / X.Yusifli. – Bakı: Elm və təhsil, – 2019. – s. 18

[20] İsayev, Ə. Bir nakamın naləsi / Ə.İsayev. – Gəncə: Gəncə şəhər icarə mətbəəsi, – 1992. – s. 31

felyetonlarında Gəncə həyatı, şəhərdə baş verən hadisələr öz əksini tapmışdır. Şairin “Tərifi Gəncə”, “Bəxtəvər Gəncə”, “Viran görürəm” və s. satiralarında həmin dövrdə Gəncədə hökm sürən hərc-mərclik, ədalətsizlik, saxtakarlıq, oğurluq, quldurluq və s. xoşagəlməz hallar tənqid olunur.

A.Sur, M.M.Axundzadə, Ə.Ruhi, Ə.Şövqi, Ə.Razi, Ə.Nəzmi kimi maarifçi şairlərin, ziyalıların sayəsində Gəncə ədəbi mühiti yeni bir mərhələsini yaşayırdı. Bu şairlərin xalq həyatı və məişətinin güzgüsünə çevrilən əsərlərində Gəncə dövrün, həyatın tələb etdiyi mövzularda öz əksini tapırdı.

Bu fəslin **“Gəncə mövzusunun milli özünüifadə rəmzi kimi formalaşmasında görkəmli ədəbi şəxsiyyətlərin rolu”** adlı 3-cü paraqrafında özünüifadə rəmzləri ayrı-ayrı şəxsiyyətlərin yaradıcılığında araşdırılır. XX əsrin milli kimlik arayışları getdikcə daha da konkretləşir, xalqın qarşısında duran problemlər dəqiqləşir, özünüdərketmədə yeni bir dövr gəlir. Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid, Əhməd Cavad kimi Gəncə mühitinə kənardan gələn ədəbi şəxsiyyətlər yerli ziyalılarla bu mühiti daha da zənginləşdirir və şəhərin ədəbi obrazının mükəmməlləşməsinə töhfələrini verirdilər. Həmin yazarların yaradıcılığında milli düşüncə və müstəqillik duyğuları başlıca yer tutur. XX əsrin əvvəllərində Gəncədə baş verən proseslər əvvəlki tarixi hadisələrin davamı kimi səslənir. Cavad xanın milli müstəqillik uğrunda mübarizəsi yeni hadisələr kontesktində ictimai-siyasi, ədəbi-mədəni mühitin əsas qaynaqlarından biri olur. Beləcə, Azərbaycan Cümhuriyyətinin süqutundan sonra da bədii yaradıcılıqda Gəncə adı və onun rəmzləri, simvolları daim özünü göstərmiş və sovet rejiminin təzyiqi ilə üzləşmişdir.

Bu fəsildə aparılmış təhlillər və qənaətlər “Ağa İsmayıl Zəbih və Gəncə”, “Əli Razi Şamçızadənin yaradıcılığında Gəncənin mədəni və ictimai mühitinin satirik-bədii ifadəsi”, “Gəncə ədəbi mühitində yetişən şair”, “İstiqlal şairi Əhməd Cavad və Gəncə”, “Nizami Gəncəvinin ilk tədqiqatçılarından maarifpərvər Mirzə

Məhəmməd Axundzadə"[21] adlı məqalə və tezislərdə dərc edilmişdir.

Dissertasiyanın **"XX əsr və çağdaş Azərbaycan poeziyasında Gəncənin milli ideya kimi bədii təcəssümü"** adlı III fəsli üç paraqrafdan ibarətdir. **"XX əsrin 20-30-cu illərində Gəncə ədəbi mühiti"** adlı paraqrafda mövzunun özünüifadə imkanları sonrakı mərhələdə araşdırılır. Azərbaycan ədəbiyyatında görkəmli yer tutan bir çox şairlər, yazıçılar və ədəbiyyatşünasların taleyi Gəncədən keçmiş, yaxud şəhərin simvollarına yaradıcılıqlarında bu və ya digər şəkildə yer vermişlər.

Səməd Vurğun "Azərbaycan" şeirində Gəncəni "*Göy yaylaqlar belinə qalx,//Kəpəz dağdan Göygölə bax!..."*[22] - deyə tərənnüm etmiş, "Azərbaycan balası" şeirində isə Gəncənin qədimliyini, təbiətini poetik simvollarla ifadə edərək onu *"Şair Nizaminin gözəl vətəni"*[23] adlandırmışdır.

Gəncə mühitinə qoşulan və bu şəhərin ədəbi obrazının mükəmməlləşməsinə töhfəsini verən ustad sənərkarlardan Mikayıl Müşfiq isə Gəncəyə sevgisini "Dilbər" adlı şeirində *"Ey gözəl Gəncənin gözəl Dilbəri,"* [24] - deyə poetik dillə Dilbər xanımı gözəl Gəncənin gözəl qızı kimi təqdim edərək bildirmişdir.

---

[21] Verdiyeva, T. Ağa İsmayıl Zəbih və Gəncə // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2022. № 2, – s.23-31; Verdiyeva, T. Əli Razi Şamçızadənin yaradıcılığında Gəncənin mədəni və ictimai mühitinin satirik-bədii ifadəsi // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2022. №1(22), – s.116-125; Verdiyeva, T. Gəncə ədəbi mühitində yetişən şair // – Bakı: AMEA Filologiya və sənətşünaslıq, – 2021, № 2, – s.102-111; Verdiyeva, T. İstiqlal şairi Əhməd Cavad və Gəncə // Azərbaycan istiqlal şairi Əhməd Cavadın 130 illik yubileyinə həsr edimiş elmi-praktik konfrans, – Gəncə: – 26 may, – 2022, – s.102-107; Verdiyeva, T. Nizami Gəncəvinin ilk tədqiqatçılarından maarifpərvər Mirzə Məhəmməd Axundzadə // Uluslararası Genceli Nizami sempozyumu – Ərzurum: – 20-21 oktyabr, – 2022, – s. 257-261.

[22] Vurğun, S. Seçilmiş əsərləri: [5 cilddə] / S.Vurğun. Tərt. ed. A.Salmansoy, – Bakı: Şərq-Qərb, – c.1. – 2005. – s.178

[23] Vurğun, S. Seçilmiş əsərləri: [5 cilddə] / S.Vurğun – Bakı: Şərq-Qərb, – c.2. – 2005. – s.74.

[24] Müşfiq, M. Əsərləri: [3 cilddə] / M.Müşfiq. Tərtib edən və red. G.Hüseynoğlu, – Bakı: Azərnəşr, – c.2. – 1970. – s.66.

XX əsrin 20-30-cu illərində Gəncə ədəbi mühitinə qoşulan Səməd Vurğun, Mikayıl Müşfiq, bu mühitdə alim kimi yetişən Mir Cəlal, Həmid Araslı kimi sənətkarlar nəzm və nəsr əsərləri ilə XX yüzillikdəki Azərbaycan ədəbiyyatı tarixinə böyük töhfələr vermiş, Gəncə ədəbi mühitinə də bir zənginlik və yenilik gətirmişlər. Bu sənətkarların yaradıcılığında Gəncə mövzusu müəyyən yer tutmuş və onun ictimai, ədəbi-mədəni mühiti canlanaraq, təbiəti obrazlaşdırılmışdır.

III fəslin **"Gəncə simvollarının poetik ifadə imkanları"** adlı 2-ci paraqrafında XX əsrin 20-50-ci illəri Gəncə özünüifadəsinin ən zəngin bir mərhələsi kimi səciyyələndirilir. Yaranması bu dövrə təsadüf edən Azərbaycan Yazıçılar Birliyinin Gəncə Bölməsi şəhərin ədəbi mühitini uzun müddət özündə cəmləşdirmişdir. Gəncə YB-də toplaşan Əli Razi Şamçızadə, Ələkbər Ziyatay, Səməd Vurğun, Mir Cəlal, Həmid Araslı, Əhməd Cəmil, Məmməd Alim və digər şərəfli yaradıcılıq yolu keçən şair və yazarlarımızın fəaliyyəti ilə Gəncənin ədəbi mühiti canlanmışdır.

1928-ci ildə Ədəbiyyat Cəmiyyətinin iştirakı ilə ayda bir dəfə əski ərəb qrafikalı əlifba ilə nəşr edilən elmi, ədəbi, ictimai, pedaqoji məcmuə "Qızıl Gəncə" jurnalı nəşrə başlamışdır. Gəncədə fəaliyyət göstərən, xüsusilə AYC Gəncə şöbəsinin üzvlərindən olan şair və ədiblərin "Qızıl Gəncə" jurnalının səhifələrini bəzəyən şeirlərinin əksəriyyəti ədəbi aləmə bu gün də çox məlum olmayan nadir incilərdəndir. AYB Gəncə filialının rəsmi orqanı olan "Qızıl Gəncə" jurnalı yalnız bir il fəaliyyət göstərsə də, həmin dövrdə Gəncə ədəbi mühitinin zənginləşməsində və bu şəhərin obrazının əbədiləşdirilməsində böyük rolu olmuşdur.

XX əsrin 30-50-ci illərində Gəncə ədəbi mühitindən çıxan və yaradıcılığında Gəncə obrazına xüsusi yer verən Nigar Rəfibəyli, Əhməd Cəmil, Zeynal Xəlil, Ələkbər Ziyatay kimi şairlər Azərbaycan poeziyasında mühüm yer tutmuşlar.

Nigar Rəfibəyli "Vətən duyğuları", "Nizamiyə" adlı şeirlərində doğma şəhəri Gəncənin simvolu olan Göygölü xatırladır, dahi şair Nizami Gəncəvinin yaradıcılığına böyük qiymət verərək onun obrazını əbədiləşdirir:

*"Sənin ömür karvanının əbədiyyət oldu yolu,*
*Çəkdiyi yüz – söz incisi, hər addımı şərəf dolu."*[25]

Əhməd Cəmil şeirlərində Gəncənin rəmzi sayılan Göygölü, Kəpəzi vəsf etdiyi kimi, məqalələrində də bu şəhərə olan sevgisi öz əksini tapmışdır. Yazıçı "Dahi Nizaminin vətənində" adlı məqaləsində Gəncəni uşaqlıq və gənclik xatirələrinin şəhəri adlandıraraq yazır: *"Dünyanı mənə ilk tanıdan, ilk sevdirən də bu şəhərdir"*[26].

Ələkbər Ziyatay Gəncə şəhərinə, onun füsunkar təbiətinə, bu söz məbədindən dünyaya nur saçan dahi Nizami Gəncəviyə bağlılığını səmimi hisslərlə şeirlərində əks etdirmişdir. O, *"Nizamiylə bir zamandan, // Adın düşüb dilə, Göygöl!"*[27] – deyərək, Gəncənin fonunda dahi Nizamiylə Göygölün bağlılığını oxucusuna çatdırır.

Zeynal Xəlil poeziyasında doğma Gəncəyə sonsuz sevgi, Nizami və Vazehə böyük məftunluq, eyni zamanda Gəncənin təbiətinə vurğunluq aşağıdakı sətirlərdə özünü biruzə verir.

*"Xeyr, ayrılmayır könül Gəncədən,*
*Onun havasıyla böyümüşəm mən."*[28]

XX əsrin 20-50-ci illərində Gəncə ədəbi mühiti və AYİ-nın Gəncə şöbəsinin ümumən Azərbaycan ədəbi, bədii düşüncəsinin əsas faktoru olduğunu görürük. Bu dövrün poeziyasında Gəncə və onun simvolları ilə bağlı yazılan şeirlər vətəni sevməyə, onun hər bir qarışını tərənnüm etməyə yönəlmişdi. Bu sevgi sonrakı şairlərin də yaradıcılığına təsir etmiş, Gəncə obrazı bədii düşüncədə müxtəlif formalarda yaşadılmışdır.

---

[25] Rəfibəyli, N. Seçilmiş əsərləri / N.Rəfibəyli. Tərtib edən: Anar, – Bakı: Şərq-Qərb, - 2004. - s.193.

[26] Cəmil, Ə. Şeirlər və məqalələr: [2 cilddə] / Ə.Cəmil, – Bakı: Şərq-Qərb, – c.1. – 2015. – s.459

[27] Ziyatay, Ə. Şeirə dönən duyğular. Şeirlər / Ə.Ziyatay, – Bakı: Yazıçı, – 1983. – s.121.

[28] Xəlil, Z. Seçilmiş əsərləri / Z.Xəlil. – Bakı: Öndər, – 2004. – s.190

III fəslin sonuncu **"XX əsrin II yarısı və çağdaş dövrdə Gəncəli şairlərin yaradıcılığında doğma şəhərin təsvirindəki yeni yanaşmalar"** paraqrafında çağdaş dövrdə poetik ifadə imkanları araşdırılır. Novruz Gəncəli, Qərib Mehdi, Rübail, Məmməd Alim kimi yazıçı və şairlərin yaradıcılığı mövzu və problematika baxımından yeni mərhələyə daxil olmuş, Gəncə və onun simvollarına, atributlarına çoxlu şeirlər və mahnılar həsr edilmişdir.

Novruz Gəncəlinin yaradıcılığında Göygöl, Kəpəz yaddaqalan cizgi və rənglərlə təsvir olunur. Şair Göygölü belə vəsf edir:

*"Kəpəzin vüqarı*
*Səfalı Göygöl,*
*Öz gözətçisinə*
*Vəfalı Göygöl."*[29]

Qərib Mehdi kimi ustadların yaradıcılığında Gəncə və gəncəlilər mövzusu poetik şəkildə inikasını tapmışdır. Şair *"Gəncənin heykəlidi, // Heykəlsiz abidələr."*[30] – deyərkən, Gəncəni simvolizə edən rəmzləri – Göygöl, çinar, Gəncə çayı kimi təbii varlıqlarımızı, Nizami, Məhsəti, Vazeh kimi dahi şəxsiyyətlərimizi nəzərə çatdırır və onları Gəncənin heykəli adlandırır.

Rübail poeziyasında Gəncə şəhərinə sevgisini, onun dahilərinə hörmətini, Göygölünə, xan çinarına heyranlığını bildirərək yazır:

*"Kəpəz Nizaminin söz heykəlidir,*
*Göygöl qəlb aynası – safdır, incədir.*
*Çinar Nizaminin öz heykəlidir,*
*Harda çinar varsa, ora Gəncədir."*[31]

Ədəbi fəaliyyəti Gəncə mühiti ilə bağlı olan Mikayıl Yanar

---

[29] Xəlil, Z. Seçilmiş əsərləri / Z.Xəlil. – Bakı: Öndər, – 2004. – s.190.
[30] Mehdi, Q. Bircəm mənim – Gəncəm mənim / Q. Mehdi, – Bakı: Vektor Nəşrlər Evi, – 2008. – s.10.
[31] Allahverdiyev, R. Seçilmiş əsərləri. Şeirlər / R. Allahverdiyev, – Bakı: Zərdabi nəşriyyat MMC, – 2021. – s. 148.

*“Bütün şəhərlərin gözüdür Gəncə”*[32] – deyərək, onun çevrəsinin Kəpəz, Qoşqar, Xoşbulaq yaylağı, Hacıkənd kimi mənzərəli, səfalı yerlərlə əhatə olunduğunu yazır.

Bəhmən Vətənoğlu şeirlərindən birində Gəncənin rəmzi olan Kəpəz dağını başqa bir rəmzi varlıq – Göygöllə orijinal bir biçimdə əlaqələndirir. Kəpəzin adını çəkməyərək onu şalını Göygölə düşürən *“dağlar adlı yaşıl donlu gözəl”*[33] adlandırır.

Çağdaş şairlərimizdən Aydın Murovdağlı, Məmməd Alim, Xəzangül Hüseynova, İnqilab İsaq və başqalarının yaradıcılığında şəhərin bədii obrazı müasir dövrü əks etdirən ən yeni çalarlarda özünü büruzə verir. Onlar öz qələm təcrübələri ilə həm Gəncə ədəbi mühitini genişləndirir, həm də yeni şair və yazarların yetişməsinə, formalaşmasına zəmin yaradırlar.

Bu fəsildə aparılmış təhlillər və qənaətlər “Ə.Cavad və H.Arif poeziyasında Gəncə”, “Milli azadlıq simvolu – Gəncə”, “Nəğmələşən Gəncə”, “Vətəninə Vurğun ilk xalq şairi”[34] adlı məqalə və tezislərdə dərc edilmişdir.

Dissertasiyanın **Nəticə** hissəsində əldə edilmiş elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir. Belə nəticəyə gəlinir ki, tarixin müxtəlif dövrlərində və ideoloji sistemində dəfələrlə adı dəyişdirilən, milli çöhrəsi dəyişdirilməyə cəhd edilən, lakin bunlara baxmayaraq özünü dirçəldərək milli varlığını daim qoruyub saxlamağa müvəffəq olan maddi-mənəvi dəyərlərimizin ən əhəmiyyətlilərindən biri Gəncə şəhəri və Gəncə adıdır. Gəncə Azərbaycanın ən qədim şəhərlərindən biri olub, şanlı keçmişə malikdir.

Gəncə qədim və şanlı tarixə malik olduğu kimi, bütün

---

[32] Yanar, M. Gəncənin dastanı, (Şeirlər. Ədəbi-bədii, tarixi salnamə): [2 kitab] / – Bakı: Azərnəşr, – k.2. – 2018. – s.25.

[33] Vətənoğlu, B. Allahsız dünya / B.Vətənoğlu. – Bakı: Gənclik, – 1992. – s.146.

[34] Verdiyeva, T. Ə.Cavad və H.Arif poeziyasında Gəncə // – Bakı: Filologiya məsələləri, – 2017. № 12, – s. 365-373; Verdiyeva, T. Milli azadlıq simvolu – Gəncə // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2019. № 1(16), – s.191-198; Verdiyeva, T. Nəğmələşən Gəncə // – Bakı: Bakı Slavyan Universiteti. Elmi Əsərləri. Dil və Ədəbiyyat Seriyası, – 2018. № 2, – s. 226-232; Verdiyeva, T. Vətəninə Vurğun ilk xalq şairi // 12th İnternational conference on culture and civilization, – Lahıc: – 21-22 iyun, - 2022, – s.228-232.

dövrlərdə zəngin ədəbi mühiti, böyük mütəfəkkir şairləri, maarifçi ziyalıları, alimləri ilə də fərqlənmişdir.

XI yüzilliyin əvvəllərində Qətran Təbrizi kimi sənətkarlar şəhərin ictimai, mədəni həyatına müsbət təsir göstəmiş və dahi Nizami Gəncəvi, Məhsəti Gəncəvi kimi şəxsiyyətlərin formalaşmasına zəmin yaratmışlar. XII əsrdə Gəncə ədəbi mühitində fəaliyyət göstərən görkəmli Azərbaycan ədəbiyyatı nümayəndələri şəhərin adı ilə bağlı olaraq "Gəncəvi" nisbəsi ilə yazıb, yaradırdılar. Həmin şairlərin Gəncə şəhərinin tanınmasında və təbliğində böyük rolları olmuşdur. Tarixən böyük şəxsiyyətlərin vətəni Gəncə dövrdən asılı olmayaraq ədəbi-mədəni mühitinin coşqu və qaynarlığı ilə seçilmişdir. XIX əsrdə Azərbaycanda ilk ədəbi məclisin Gəncədə yaranması bunun bariz nümunəsi idi.

XIX yüzilliyin əvvəllərində Azərbaycan ədəbiyyatına Gəncə adı ilə bağlı yeni bir rəmz daxil olmuşdur. Bu, Gəncə əhalisinin çarizmin işğalına qarşı dirənişinin simvoluna çevrilmiş Cavad xanın adı ilə əlaqədar idi.

XX yüzilliyin ilk onilliklərində həyat və fəaliyyətləri Gəncə ilə bağlı olan yaradıcı insanlarla yanaşı, Gəncə mühitinə qoşulan sənətkarlar da bu şəhərin ədəbi obrazının mükəmməlləşməsində öz töhfələrini verirdilər.

Sovet dövründə də Gəncə ədəbi mühiti zənginliyi ilə fərqlənmişdir. Yaranması bu dövrə təsadüf edən Azərbaycan Yazıçılar Birliyinin Gəncə Bölməsi şəhərin ədəbi mühitini uzun müddət özündə cəmləşdirmişdir. Gəncə mövzusu ilə bağlı poetik ənənələr sonrakı dövrdə də davam etmiş və özünüifadə rəmziliyini qoruyub saxlamışdır. Çağdaş dövrdə də əsərlərində Gəncənin şanlı tarixini, bənzərsiz təbiətini, mərd, qəhrəman insanlarını, dahi şəxsiyyətlərini, böyük ziyalılarını əks etdirən şairlər və gənc yazarlar bu şəhərin adının milli özünüifadənin rəmzi kimi yaşadılmasına xidmət edirlər.

Gəncə mövzusu haqqında aparılan araşdırmalar aşağıda gəldiyimiz nəticəyə əsas verir:

1. Gəncənin tarixi ilə bağlı bir çox hadisələrlə tanışlıq onu deməyə əsas verir ki, Gəncə adı xalq kütlələrinin hər bir fərdinin

yaddaşında milli qürur, azadlıq və istiqlaliyyət simvolu kimi dərin iz buraxmışdır.

2. Tarixin müxtəlif dövrlərində Gəncədə cərəyan edən mürəkkəb, ziddiyyətli ictimai-siyasi hadisələrə baxmayaraq, qədim şəhər daim elm, mədəniyyət və ədəbiyyat mərkəzi olması özəlliyini özündə qoruyub saxlamışdır.

3. Zaman-zaman Gəncə adı yadelliləri vahiməyə saldığından onu xalq kütlələrinin qəlbindən silib yox etmək məqsədilə qədim şəhərin adı bir neçə dəfə dəyişdirilmişdir. Lakin bütün bu müdaxilələr Gəncənin əsl mənşəyini, simasını, öz varlığını dəyişdirə bilməmiş, şairlərimiz ən çətin zamanlarda belə bu adı yaşatmışlar.

4. Gəncə mövzusu klassik ədəbiyyatda milli özünüifadə rəmzi kimi hələ qədimdən müəyyən yer tutmuşdur. Q.Təbrizi, Ə.Gəncəvi, M.Gəncəvi, N.Gəncəvi və b. yaradıcılığında qəsidə, poema, rübai, şəhraşub, şəhrəngiz və s. formalarda Gəncənin ictimai vəziyyəti, təbiəti, burada yaşayan sənətkarların, şairlərin, alimlərin, peşə sahiblərinin obrazı yaradılmışdır. Bu obrazlar bütövlükdə Gəncənin tarixini, mədəniyyətini özündə əks etdirirdi.

5. Gəncədə Qətran Təbrizi kimi bir hikmət sahibinin "Divan"ında mədh edərək ustad adlandırdığı böyük şəxsiyyətlərin varlığı, bir daha sübut edir ki, bu qədim şəhər hələ XI əsrdən ziyalıların, böyük alimlərin, mütəfəkkirlərin vətəni olmuşdur.

6. XII əsr Şərq dünyasında qadın azadlığı probleminin var olduğu bir dövrdə Gəncədə sözü, sənəti, şəxsiyyəti ilə seçilən qadın şairlərin bədii fəaliyyəti burada ictimai mühitin, düşüncənin intibah dövrünə məxsus fərqliliyini göstərirdi.

7. "Gəncəvi" nisbəsi ilə yazıb-yaradan şairlər Azərbaycan, eləcə də, dünya poeziyasında öz izlərini salırdılar. Onlar "Gəncəvi"nisbəsini götürməklə, Gəncə adını yalnız əsərlərində deyil, kimliklərində də yaşatmışlar.

8. XIX əsrin əvvəllərində maarifçi ziyalı insanların yetişməsinə şərait yaradan, öz nüfuzu ilə beynəlxalq bir ədəbi təşkilata çevrilən "Divani-hikmət" ədəbi məclisi Gəncədə formalaşmaqla yarandığı dövrdən qədim şəhərin elmi və ədəbi həyatında mühüm rol oynamış, həm Gəncəni, həm də onun

ziyalılarını dünyada təbliğ etmişdir.

9. Cavad xanın və Gəncə əhalisinin Çar imperiyasına, mütəmləkəçiliyə qarşı azadlıq mübarizəsindəki şücaəti Gəncəni və Cavad xan, Uğurlu xan obrazlarını Azərbaycan poeziyasının mücadilə rəmzinə çevirmiş və haqqında şeirlər, poemalar yazılmışdır.

10. XX əsrin əvvəllərində Gəncə ədəbi mühitində özünüifadə imkanlarının genişləndiyini, forma və məzmunca yeniləndiyini görmək mümkündür. A.Sur, M.M.Axundzadə, Ə.Ruhi, Ə.Şövqi, Ə.Razi, Ə.Nəzmi kimi maarifçi şairlərin, ziyalıların xalq həyatı və məişətinin güzgüsünə çevrilən əsərlərində Gəncə dövrün, həyatın tələb etdiyi mövzularda öz əksini tapırdı. Həmin nümunələr yazarların öz həyatlarına əsaslanaraq tanıdıqları insanlar, gördükləri, şahid olduqları hadisələr əsasında qələmə alındığına görə səmimiliyi ilə oxucu diqqətini daim özünə cəlb etmişdir.

11. XX yüzilliyin əvvəllərində Gəncədə baş verən proseslər əvvəlki tarixi hadisələrin davamı kimi səslənirdi. H.Cavid, M.Hadi, A.Səhhət, Ə.Cavad yaradıcılığında milli düşüncə və müstəqillik duyğuları başlıca yer tuturdu. Nəticə olaraq Azərbaycan Cümhuriyyətinin süqutundan sonra da bədii yaradıcılıqda Gəncə adı və onun rəmzləri, simvolları daim özünü göstərir və sovet rejiminin təzyiqi ilə üzləşirdi.

12. XX əsrin ilk onilliklərində Gəncə ədəbi mühitinə qoşulan S.Vurğun, M.Müşfiq, bu mühitdə alim kimi yetişən M.Cəlal, H.Araslı kimi sənətkarlar yüksək əxlaq və hikmət sahibi olmaqla bərabər, nəzm və nəsr əsərləri ilə Azərbaycan ədəbiyyat tarixinə böyük töhfələr vermiş, Gəncə ədəbi mühitinə də bir zənginlik və yenilik gətirmişlər. Bu sənətkarların yaradıcılığında Gəncənin ictimai, ədəbi-mədəni mühiti canlanaraq, təbiəti obrazlaşdırılmışdır.

13. Gəncə ədəbi mühitinin nümayəndələri yalnız bədii yaradıcılıqla məşğul olmamış, həm də şəhərin mədəni, ədəbi mühitinin inkişafına təkan verən tədbirlərin təşəbbüsçüsü kimi çıxış etmişlər. Həm pedaqoji, həm ictimai fəaliyyətlə, həm də elmi tədqiqatla məşğul olan görkəmli gəncəli ziyalılar Vətənin

milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəslə doğru şəkildə çatdırılması üçün çalışmışlar.

14. XX əsrin 20-50-ci illərində Gəncə ədəbi mühiti və AYİ-nın Gəncə şöbəsinin ümumən Azərbaycan ədəbi, bədii düşüncəsinin əsas faktoru olduğunu görürük. Bu mühitdən çıxmış şair, yazıçı və alimlər Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri kimi ədəbiyyat tariximizdə mühüm yer tutmuşlar. Onların Gəncə və onun simvolları ilə bağlı yazdığı şeirlər vətəni sevməyə, onun hər bir qarışını tərənnüm etməyə yönəlmişdi. Bu sevgi sonrakı şairlərin də yaradıcılığına təsir etmiş, Gəncə obrazı bədii düşüncədə müxtəlif formalarda yaşadılmışdır.

15. Qədim mədəniyyət və incəsənət mərkəzi olan Gəncənin ədəbi mühitində fəaliyyət göstərən şairlərin şanlı şəhərin tarixini, zəngin mədəniyyətini, özünəməxsus məziyyətlərini, rəmzlərini əks etdirən şeirləri yalnız ədəbiyyatda qalmamış, incəsənətə çevrilərək musiqilər bəstələnmişdir. Hörmət və məhəbbətin nəticəsində yaranmış poetik misraların və mahnıların hər biri Gəncənin dünənini və bugününü əks etdirir, onu tərənnüm edir və bu adı xalqın milli düşüncəsində yaşadır.

16. Gəncədə yaşayıb-yaradan şairlərin yaradıcılığında rast gəlinən obraz, detal və digər ştrixlər bütövlüklə Azərbaycan poeziyasında da rastlanır. Gəncədə yaşayan şairlərin poeziyasında Göygöl, Kəpəz, Çinar və s. motivlər poetik dövriyyəyə daxil olur, "Çinarların vətəni Gəncədir" deyimi göz önünə gəlir, Kəpəz ucalığın, Göygöl saflığın, duruluğun rəmzləri kimi ifadə olunur.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalə, konfrans materialı və tezislərində əks olunmuşdur:**


1. Ə.Cavad və H.Arif poeziyasında Gəncə // – Bakı: Filologiya məsələləri, – 2017. № 12, – s.365-373.
2. Nizami Gəncəvi "Xəmsə"sində Gəncə // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2017. № 1(13), – s.94-103
3. Поэты XII века, творившие под псевдонимом Гянджеви // Международной Научно-практический конфранс, – Пятигорск: – 25-26 мая, – 2017, – стр. 31-36
4. Nəğmələşən Gəncə // – Bakı: Bakı Slavyan Universiteti. Elmi Əsərləri. Dil və Ədəbiyyat Seriyası, – 2018. № 2, - s. 226-232
5. Milli azadlıq simvolu – Gəncə // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2019. № 1(16), – s.191-198
6. Значимое место города Гянджи в литературной и общественно-политической жизни Азербайджана // – Алматы: Вестник Каз.НУ. Серия филологическая, – 2019. № 2(174), – стр. 35-40.
7. Gəncə ədəbi mühitində yetişən şair // – Bakı: AMEA Filologiya və sənətşünaslıq, – 2021. № 2, – s.102-111
8. Məhsətinin Gəncə şəhraşubları // – Gəncə: GDU. Elmi xəbərlər jurnalı, – 2021. № 2, – s.373-379
9. Ağa İsmayıl Zəbih və Gəncə // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2022. № 2, – s.23-31
10. Əli Razi Şamçızadənin yaradıcılığında Gəncənin mədəni və ictimai mühitinin satirik-bədii ifadəsi // – Bakı: Risalə. Araşdırmalar toplusu, – 2022. № 1(22), – s.116-125
11. İstiqlal şairi Əhməd Cavad və Gəncə // Azərbaycan istiqlal şairi Əhməd Cavadın 130 illik yubileyinə həsr edimiş elmi-praktik konfrans, – Gəncə: – 26 may, – 2022, – s.102-107
12. Vətəninə Vurğun ilk xalq şairi // 12th İnternational conference on culture and civilization, – Lahıc: – 21-22 iyun, – 2022, – s.228-232.

13. Nizami Gəncəvinin ilk tədqiqatçılarından maarifpərvər Mirzə Məhəmməd Axundzadə // Uluslararası Genceli Nizami sempozyumu. – Ərzurum: – 20-21 oktyabr, – 2022, – s. 257-261

Dissertasiyanın müdafiəsi 07 mart 2025-ci il tarixində saat 14:00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001. Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53.
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.01.2025

Kağızın formatı: A5

Həcm: 39 647

Tiraj: 100